Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Layihə çərçivəsində

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

# Ölkəmizdə diaspor quruculuğu yüksək səviyyədə təşkil olunub

**Tarixin bütün dövrlərində prioritet məsələlərdən biri də diaspor quruculuğu və lobbiçilik fəaliyyəti olub ki, bu gün də öz aktuallığını saxlayır. Məlum olduğu kimi, Azərbaycan diasporunun əsası və milli həmrəyliyin təşəkkül tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.**

Dahi şəxsiyyət milli birliyimizi, xalqımızın həmrəyliyini yüksək qiymətləndirərək bu istiqamətdə mühüm əhəmiyyət daşıyacaq addım atdı. 1991-ci ildə Ümummilli Liderin təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsilə ölkəmizin mühüm siyasi hadisələrindən birinə çevrildi. Ulu Öndər ölkə daxilində yaşayan azərbaycanlılarla yanaşı, xaricdə məskunlaşan həmvətənlərimizin birliyinə, həmrəyliyinə xüsusi önəm verirdi. Onların da mənəvi dəyərlərimizə, adət-ənənələrimizə, vətənimizə bağlı olmalarını tövsiyə edirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir. Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

Beləliklə, 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. 2002-ci ildə isə Prezidentin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Həmin qurultayda Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvləri müəyyənləşdirildi. Qeyd edək ki, qurultayda 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Onların arasında Türkiyə, Böyük Britaniya, ABŞ, Danimarka. Fransa, Almaniya, Rusiya, Gürcüstan, Avstriya, Rumıniya, Kanada, Finlandiya, Estoniya, İsrail və digər dövlətlərin təmsilçiləri yer almışdı. 2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradıldı və eyni zamanda "Xarixdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanun qəbul edildi ki, bu da dünya azərbaycanlılarının təşkilatlanması prosesinin daha da güclənməsində önəmli rol oynadı.

Bu gün azərbaycançılıq həm Azərbaycanda, həm də dünyada yaşayan azərbaycanlılar üçün milli ideyaya çevrilib. Müdrik dövlət xadimi Heydər Əliyev məhz ölkə hüdudundan kənarda yaşayan həmvətənlərimizə bu ideya ətrafında sıx birləşməyi təlqin edirdi. Qeyd edirdi ki, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etməkdən ibarətdir. Ulu Öndər xarici ölkələrə səfər edərkən orada yaşayan azərbaycanlılarla görüşərək daim onlarla söhbətlər aparıb, bir-biriləri ilə sıx əlaqələr qurmalarını, həmçinin təşkilatlanmalarını tövsiyə edib. Təbii ki, soydaşlarımız Ümummilli Liderin bu tövsiyyələrindən bəhrələnərək bir-birilərilə əlaqələrini daha da möhkəmləndirərək diaspor quruculuğuna başladılar. Və bu gün əminliklə deyə bilirik ki, Azərbaycan diasporasının banisi dahi şəxsiyyət Heydər Əliyevdir. Ümummilli Lider daim xaricdə yaşayan azərbaycanlıların birliyi və təşkilatlanması məsələsini diqqətdə saxlayıb, Azərbaycan diaspor cəmiyyətlərinin problem və qayğılarına xüsusi həssaslıqla yanaşaraq lazımi tapşırıqlarını verib. Ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımız Ulu Öndərin bu tövsiyələrini əsas tutaraq bir araya gəlib vətənimizi lazımi səviyyədə tanıdır, müdafiə edirlər. Ulu Öndərin qeyd etdiyi kimi, "Dünya azərbaycanlılarının ancaq bir vətəni, müstəqil dövləti var, bu, Azərbaycan Respublikasıdır. Biz hamımız da onun ətrafında birləşməliyik".

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət diaspor siyasətini Prezident İlham Əliyev uğurla davam etdirərək üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirir, bu istiqamətdə ardıcıl siyasət yürütməkdə davam edir. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan dövləti bu sahədə həyata keçirdiyi tədbirlər nəticəsində diaspor və lobbiçilik fəaliyyətinin uğurlu icrasına nail olub. Bu sırada 2018-ci ildə dövlət başçısının fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması atılan önəmli addımlardandır. Qeyd edək ki, Fond 200-ə yaxın diaspor təşkilatının sənədlərinin həmin ölkələrin qanunvericiliyinə uyğun tərtib edilməsinə və qeydiyyatdan keçməsinə köməklik göstərib, həmçinin 100-dən çox layihənin maliyyələşdirilməsində dəstək olub. Bundan başqa, 2020-ci ildə Nazirlər Kabineti tərəfindən "Xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi qaydası" təsdiq olunub. Komitə ilə asan əlaqələrin qurulması məqsədilə müasir informasiya texnologiyalarının tətbiqinə başlanılıb və qurum "Elektron hökumət" portalına inteqrasiya olunub. Bundan başqa Azərbaycanlıların Koordinasiya Şuralarının yaradılması və Azərbaycan evlərinin açılması da görülən tədbirlər sırasında xüsusi önəm daşıyır. Belə ki, dünyanın 31 ölkəsini əhatə edən, eyni zamanda 130 diaspor təşkilatını özündə birləşdirən 14 Koordinasiya Şurası, 12 ölkədə yaradılmış 18 Azərbaycan Evi fəaliyyət göstərməkdədir. Eyni zamanda gənclərin bu istiqaəmətdə fəallığının artırılması, milli kimliyinin qorunub saxlanması və liderlik potensialının inkişaf etdirilməsi məqsədilə Azərbaycan Diaspor Gəncləri Şəbəkəsi formalaşdırılıb.

Azərbaycan diasporunun, lobbisinin rolunu biz 44 günlük Vətən müharibəsində daha aydın şəkildə görmüş olduq. Dünyanın bir çox ölkəsində, əsasən də səfirliklər qarşısında Azərbaycan əleyhinə aksiya keçirən erməni təşkilatlanmasının qarşısına çıxan Azərbaycan diasporu onların yalanlarına layiqli cavablar verərək yerindəcə susdurdular, bizim bu müharibədə haqlı tərəf oluğumuzu dünya ictimaiyyətinə bəyan etdilər. Ölkəmizin ədalətli mövqeyinin, haqlı mübarizəsinin dünyaya çatdırılmasında diaspor fəaliyyətinin, lobbiçiliyinin mühüm əhəmiyyət daşıdığını Vətən müharibəsində müşahidə etmiş olduq.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edərkən qeyd edib ki, Vətən Müharibəsi dövründə xaricdəki soydaşlarımız siyasi görüşündən, düşüncəsindən, yaşadığı ölkədən, çalışdığı yerdən asılı olmayaraq, milli birlik nümayiş etdirərək bütün imkanları ilə dövlətimizə dəstək göstərib: "Onlar orduya, yaralı əsgərlərə, şəhid ailələrinə, cəbhəboyu ərazilərdə yaralanan, evləri dağılan dinc sakinlərə, həmçinin həlak olanların ailələrinə humanitar yardımlar göndərməklə yanaşı, haqq səsimizin dünyaya çatdırılmasında da böyük mütəşəkkillik və fədakarlıq nümayiş etdiriblər".

Beləliklə, diaspor təşkilatları dünyanın 30-dan çox ölkəsində 200-dək aksiya keçirib. Bu aksiyalarda 25 mindən çox soydaşımız və bizə dost olan xalqların nümayəndələri iştirak edib. Eyni zamanda 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərib. Bütün bunlar dövlətin bu istiqamətdə apardığı siyasətin nəticəsi idi.

Vətən Müharibəsində əldə etdiyimiz möhtəşəm Qələbədən sonra xaricdə yaşayan soydaşlarımızın Şuşaya təşkil olunan səfəri isə öz möhtəşəmliyi ilə yadda qaldı. Daha sonra mədəniyyət paytaxtımız Şuşada keçirilən Dünya Azərbaycanlılarının V-Zəfər Qurultayı birliyimizin və həmrəyliyimizin daha bir nümunəsi oldu. Qurultayda dünyanın 65 ölkəsindən 400-dən çox nümayəndə iştirak edirdi. Cənab Prezident İlham Əliyev çıxışı zamanı Zəfər Qurultayının dünyada yaşayan hər bir azərbaycanlı üçün qürurverici hadisə olduğunu bəyan etdi. Ölkə rəhbəri Zəfərimizi 50 milyonluq Azərbaycan xalqının yenilməzlik rəmzi adlandırıb.

Azərbaycan-Türkiyə münasibətləri fonunda diaspor təkilatlarımızın birgə fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Belə ki, Şuşa Bəyannaməsinə uyğun olaraq, Azərbaycan və Türkiyə diasporları arasında qarşılıqlı əməkdaşlıq, dəstək və həmrəylik fəaliyyətinin gücləndirilməsi də xüsusi diqqətdə saxlanılır. Onu da qeyd edək ki, Azərbaycan diasporunun birliyinə nail olunması və işin sistemli şəkildə təşkili məqsədilə 2019-2023-cü illər üçün Strateji Yol Xəritəsi də hazırlanıb.

Beləliklə, Azərbaycan diasporasının gördüyü işlər qürurvericidir. Əminliklə qeyd etmək lazımdır ki, ölkəmizdə diaspor quruculuğu yüksək səviyyədə inkişaf etdirilir.

***Elnurə İSAXAN***